0119000028

Reçu CLT / CIH / ITH
Le 31 MARS 2015
N° 0318

Yallı rəqsinin Dəhnə, Tənzərə, Köçəri, Gopu və bu kimi onlarca növ və çeşidləri əsrlər boyu inkişaf etmiş zamanəmizə gəlib çıxmışdır, lakin bundan sonra onun qorunması və təbliği üçün xüsusi səylər göstəriləməlidir. Bu sarıdan bu ənənəvi el sənətinin UNESCO-nun Qeyri-maddi Mədəni İrs üzrə Təcili Qorunma Siyahısına daxil olmasını dəstəkləyirəm.

Mirələkbər Seyidov
Şərur rayonu Çərçiboğan kəndi

Mən, Həsənov Şaxbaz Muxtar oğlu, Şərurda Yallı sənətinin UNESCO-nun Qeyri-maddi Mədəni İrs üzrə Təcili Qorunma Siyahısına daxil olmasına razılıq bildirirəm. Inanıram ki, bu addımla bu qədim sənət növünə ictimai maraq bundan sonra daha da artacaq, onun gənc nəsillərə ötürülməsinə təkan veriləcəkdir.

Şahbaz Həsənov,
Şərur rayon Qarahəsənli kənd sakini

Uzun illər boyu yallı sənətini imkanlarım daxilində yaşadan bir insan kimi bu el xalq ənənəsinin UNESCO-nun Qeyri-maddi Mədəni İrs üzrə Təcili Qorunma Siyahısına daxil olması məsələsinin qaldırılmasından məmnunluğumu bildirirəm. Xalq arasında yaşayan bu sənətin bu gün  xüsusi qayğı və diqqətə ehtiyacı var, buna görə UNESCO-nun himayəsi bizimçün çox qiymətlidir.
Şərur qönçləri uşaq yallı ansambılının bədii rəhbəri

Səttar Əhmədov

UNESCO-nun Qeyri-maddi Mədəni İrs üzrə Nümunəvi Siyahısında Azərbaycanın bir sıra dəyərli mədəni təzahürü artıq öz əksini tapmışdır, bunun gözəl bəhrəsinin hamımız şahidiyik. Sevinirəm ki, Şərur yallısının (və həmçinin Arzumanı, Köçəri, Mərcanlar, Tənzərə kimi rəqs növlərinin) təqdim olma məsələsi təcili surətdə qoyulmuşdur. Ümid edirəm ki, mötəbər beynəlxalq səviyyədə yallının dəyərləndirilməsi bu qiymətli el sənətinə ümumi diqqəti artıracaq.

Şərur Şəhər sakini
Qənbərov Lətif Məhərrəm oğlu

UNESCO-nun Qeyri-maddi Mədəni İrs üzrə Təcili Qorunma Siyahısına daxil olmaq üçün Şərurda yallı sənəti çeşidlərinin təqdim olunması məni çox razı saldı. Azərbaycanda yaşayan bütün xalqlar, müxtəlif yaş nəsillərinin nümayəndələri yallı rəqsini sevinclə qəbul edir. Bununla belə bu sənətin qorunmaya və statusunun qaldırılmasına ehtiyac duyulur. Buna görə Şərur yallılarının həmin siyahıya daxil olunmasının təsdiqini səbirsizliklə gözləyəcəyəm.

Şərur rayon Muğanlı kənd sakini –
Əliyev Musa

0119000026

Reçu CLT / CIH / ITH

Le 02 OCT. 2017

N° 0457

1.
Letter of consent

I, Hasanov Shahbaz Mukhtar oglu, hereby express my consent in regard inclusion of yalli dance into the UNESCO List of Intangible Cultural Heritage in Need of Urgent Safeguarding. I belive, that by doing this step the public interest towards ancient art form will increase even more, and it's transfer to the younger genereation will receive a new impetus.

Shahbaz HASANOV
Resident of the Garahasanli village

2.
Letter of consent

Dozens of the types and varieties of yalli dances such as Dehne, Tanzara, Kochari, Gopu were developing over the centuries and arrived with our times, however from now on special endeavours are to be excerted for safegurading and promoting them further on.
In this sense I do support inclusion of this traditional folk art form in the UNESCO List of Intangible Cultural Heritage in Need of Urgent Safeguarding.

Miralakbar SEYIDOV
Charchibogan village

3.
Letter of consent

I was very pleased to learn about submitting an entry of yalli dances on the UNESCO List of Intangible Cultural Heritage in Need of Urgent Safeguarding.

All local communities belonging to various generations are eagerly accepting yalli. Nevertheless, there is perceived need in safeguarding and raising up the status of this art. This is the reason why I'll be impatiently waiting for approval of inclusion of the yalli dances into the above list.

Musa Aliyev
Resident of Muganly village

4.
Letter of consent

Some valuble cultural expressions of Azerbaijan have been already reflected in the UNESCO Representative List of Intangible cultural heritage, and we all are witnessing the outcomes of these actions. It makes me happy to know that the inquiry on yalli dances (and among them some dance examples as Arzumani, Kochari, Merjanlar, Tenzere and many others) is put under an urgent track. Hopefully, the acceptance of yalli on the highly esteemed internationla level will cause inreased public interest towards this valuable form of folk art.

Latif Maharram oglu Ganbarov, Resident of Sharur town

5.
Letter of consent

As a person dealing for many years with enlivening the art of yalli dances by all my personal capacity, I'm expressing hereby my satisfaction with the raising the question of incluon of this folk tradition into the UNESCO List of Intangible Cultural Heritage in Need of Urgent Safeguarding.

Nowadays this art living in the core of people is in need of special care and attention, that's why safeguarding of the dances is very precious for us.

Sattar AHMADOV
Inhabitant of Sharur

0119000027

Reçu CLT / CIH / ITH

Le 29 SEP. 2017

N° 0441

YUNESKO-nun Baş Direktoru

Xanım İrina Bokovaya

Hörmətli xanım Bokova,

Köçəri və tənzərə kimi Naxçıvanın ənənəvi yallı rəqsləri qədim tarixə malikdir. Azərbaycan xalqı uzun əsrlər boyu rəngarəngliyi və coşğunluğu ilə insanı valeh edən rəqslər yaratmışdır. Xalqımızın xoreoqrafiyasında müxtəlif xarakterli rəqsləri var. Kişi və qadınların tək, qoşa, kütləvi rəqslərini, habelə, oynaq mahnı ilə müşayiət olunan rəqsləri göstərmək mümkündür. Həmin rəqslər öz xoreoqrafik mürəkkəbliyi, hərəkətlərin həmahəngliyi, zərifliyi və dəqiqliyi, oynaqlığı və şuxluğu ilə insanlara böyük mənəvi zövq vermişdir. Bu zəngin mənəvi sərvət sadədən mürəkkəbə doğru inkişaf edərək saflaşmış, cilalanmış və büllurlaşmışdır.

Yallı rəqsləri yerli icmaların həyatında çox mühüm rol oynayır. Hər bir rəqs növü xüsusi məna və məzmun daşımaqla bərabər, həm də birlik ifadəsinin rəmzidir. Bu rəqslər xalqımızın yaşayış tərzini, adət-ənənəsini, mübarizliyini və əmin-amanlığa can atmasını ifadə edir. Bu günə qədər rəqslər Naxçıvanın toy mərasimlərində, el şənliklərində yaşadılıb. Xüsusən Şərur toylarını indi də yallısız təsəvvür etmək çətindir. Yallı həm də bu yerlərin musiqi rəmzidir. Zaman-zaman görkəmli insanlar da yallının bölgədə məhz Şərurda yarandığını və inkişaf etdiyini söyləyiblər. Bu gün də bayram tədbirləri, el şənlikləri, konsert proqramlarını yallısız təsəvvür etmək olmaz. Bu rəqslərin ifası zamanı insanlar əl-ələ tutub ünsiyyətdə olur, küsülülər barışırlar. Bu rəqslər həm də barış rəmzidir.

Buna baxmayaraq, müxtəlif tarixi və ictimai-iqtisadi proseslər, o cümlədən regionda baş vermiş müharibələr və münaqişələr, Sovet İttifaqının siyasəti, urbanizasiya, daxili miqrasiya prosesləri bu rəqslərin inkişafı, onların müxtəlifliyinin qorunub-saxlanması və gələcək nəslə ötürülməsi üçün çətinliklər yaratmışdır. Müstəqillik illərində muxtar respublikada milli-mənəvi dəyərlərimiz olan yallıların qorunması və yaşadılması istiqamətində işlər görülür.

"Yallı Naxçıvanın ənənəvi rəqsləri"nin YUNESKO-nun Təcili qorunmaya ehtiyacı olan qeyri-maddi mədəni irs siyahısına daxil edilməsi üçün müvafiq təşəbbüsünü tamamilə dəstəkləyirik. Bu təşəbbüs bu irsin tanıdılması, onun müxtəlifliyinin qorunub-saxlanması və ötürülməsi üçün çox vacib addım olardı.

**Hörmətlə,**

**Bəhruz Kəngərli adına Şərur Şəhər Uşaq Musiqi və İncəsənət Məktəbinin direktoru** **Bəhruz İbrahimov**

UNESCO Director-General
Mrs Irina Bokova

Dear Mrs. Bokova,

We would like to highlight that traditional dances of Nakhchivan, such as "kochari" and "tanzara" have ancient historic roots.
For many centuries, the Azerbaijani people have created dances that are known for their diversity and originality. The choreography of our people possesses different dance types. Due to this, it is possible to demonstrate single, double dances as well as dances, accompanied by a joyful song. These dances have been admired by their choreographic complexity, harmony, elegance and accuracy of their actions.
This spiritual abundance has evolved from simplicity to complexity, being polished and illuminated on its way. Yalli dances play a crucial role in the lives of local communities. Each dance type represents a specific topic and a symbol of solidary, thus carrying a unique meaning and content. These dances symbolize lifestyle, traditions, struggle and well being of our people.
Even today, these dances are performed at wedding ceremonies and festive events of Nakhchivan. It is impossible to imagine Sharur's weddings without yalli. Yalli is a symbol of these places. From time to time, prominent people would highlight that Yalli was born and developed in the region. Nowadays, Yalli is a part of holiday events, festivities and concert programmes. The main idea of these dances is to foster communication and bring reconciliation between people. Hence, these dances symbolize the peace as well.

Nevertheless, various historical and socio-economic processes, including wars and conflicts in the region, the Soviet Union's policy, urbanization and internal migration have created significant obstacles for the further development of these dances, for the preservation of their diversity and their transformation to the future generations. As a result, many kinds of Yalli dances are being forgotten and performed in more folklore style.

Therefore, we fully support the initiative of UNESCO to include traditional dances of Yalli from Nakhchivan into the List of intangible cultural heritage in Need of Urgent Safeguarding. This initiative would be a very important step forward in promoting this dance type, preserving its diversity and transmitting it.

Yours Sincerely,

Director of the Sharur Children Music and Arts School named after Behruz Kengerli

Bahruz Ibrahimov

**YUNESKO-nun Baş Direktoru**

**Xanım İrina Bokovaya**

Hörmətli xanım Bokova,

Naxçıvan regionunun yallı ənənəvi rəqsləri qədim tarixə malikdir. Heç şübhəsiz ki, onun yaranma tarixi əlifbanın, yazılı mədəniyyətin əmələ gəlməsindən əvvəlki dövrlərə təsadüf edib. İlkin yallı oyunları oda, atəşə pərəstiş dövründə formalaşıb. O, od-ocaq ətrafında toplanan mərasimlərdən ibarət olub. Sonralar isə əhalinin başlıca məşğuliyyət sahəsi olan ovçuluqla bağlı rəqs nümunələri yaranıb. Ovun, döyüşün uğurlu olmasını arzulayan, ovsuna, tilsimə arxalanan, fövqəltəbii qüvvələrə and vermək istəyənlər özlərinin bu münasibətlərini mərasimlərdə təqlid, təsvir yolu ilə ifadə etməyə çalışıblar. Yadelli, hiyləgər düşmən üzərində mübarizə, baharın gəlişi və digər həyati vacib məsələlər də rəqs nümunələrində dolğun əksini tapıb.

Xoreoqrafiya məzmununa görə bu yallılar iki növə ayrılır: süjet və rəqs tipli oyunlar. Süjetli oyunlar müəyyən hadisəni təsvir etdiyinə görə teatrlaşmış xalq oyunlarına bənzəyir. Bu rəqslərdə zarafat, gülüş üstünlük təşkil etsə də, digər yallılarda ifa və yeriş elementləri diqqəti çəkir. “Tənzərə”, “El yallısı”, “Gopu”, “Qazı-qazı”, “Köçəri”, “Urfanı”, “Qaladan-qalaya” belə yallı nümünələrindəndir. Hazırda muxtar respublikada yallıların qorunması və yaşadılması istiqamətində mühüm işlər görülür. Yaradılan müxtəlif yallı qrupları yallıların yaşadılmasında və təbliğində mühüm rol oynayır.

“Yallı Naxçıvanın ənənəvi rəqsləri”nin YUNESKO-nun Təcili qorunmaya ehtiyacı olan qeyri-maddi mədəni irs siyahısına təqdim edilməsini tamamilə dəstəkləyir və rəhbər etdiyiniz təşkilat tərəfindən bu elementin tanıdılmasında köməklik göstərməyinizi xahiş edirik.

**Hörmətlə,**

**Ərtoğrol Cavid adına Naxçıvan Şəhər Uşaq**

**Musiqi və Bədii Sənətkarlıq Məktəbinin direktoru: [illegible]fəs Babayev**

UNESCO Director-General
Mrs Irina Bokova

Dear Mrs. Bokova,

Traditional Dances “Yalli” of Nakhchivan region have ancient history. Undoubtedly, the time of their creation coincided with the period of preceding the formation of alphabet and written culture. It is believed that the first Yalli dances appeared in course of the fire admiration. It was a part of ceremonial gatherings around the fire. Afterwards, this dance, featuring the main occupation of the population of that time emerged. Such scenes as victories over enemies, the arrival of spring and other vital episodes of the life are reflected in these dances.

According the chorographical content, Yallis can be divided in two types: plot based dance and dance games. Plot based dances, describing a certain life scene, feature theatrical folk dance. While jokes and laughter dominate in the dances, Yalli dances amaze by performing style. "Tanzara", "El yallisi", "Gopu", "Qazi-qazi", "Kochari", "Urfani", "Qaladan-qalaya" are the most famous Yalli dance types. Nevertheless, in the course of our history, there was a period when the interest to the Yalli type dance had been significantly diminished and we are working on reviving and safeguarding Yalli dances.

In this regard, we fully support the inscription of Yalli traditional dances from Nakhchivan” on UNESCO List of Intangible Heritage in Need of Urgent Safeguarding and kindly ask your Organization to assist us in promotion of this element.

Yours sincerely,

Director of the Nakhchivan City Children Music and Arts School named after Ertoghrol Javid

Abulfas Babayev

**YUNESKO-nun Baş Direktoru**

**Xanım İrina Bokovaya**

Hörmətli xanım Bokova,

YUNESKO-nun dunya mədəni irsinin qorunması istiqamətində fəaliyyətini alqışlayır və Sizin rəhbərliyinizlə təşkilatın bununla bağlı həyata keçirdiyi tədbirlərin miqyasının daha da genişlənəcəyinə inanırıq. Bildiyiniz kimi, Azərbaycan xalqının, Naxçıvan regionunun qeyri-maddi mədəni irsinin ən qədim və gözəl nümunələrindən olan yallı ənənəvi rəqsləri YUNESKO-nun Təcili qorunmaya ehtiyacı olan qeyri-maddi mədəni irs siyahısına salınması üçün təqdim edilmişdir.

Azərbaycan rəqs sənətinin geniş yayıldığı ərazilərdən biri Naxçıvan diyarıdır. Naxçıvan rəqsləri birbaşa ənənələrə söykənir və əski elementləri özündə ifadə edir.Ən qədim tarixi dövrlərdən günümüzə qədər yaşayan Naxçıvan xalq rəqsləri bu regionun spesifik musiqi üslubunu və ifaçılıq ənənələrini özündə əks etdirir. Xalq rəqslərinin janr, ifaçılıq, ifadə vasitələri baxımdan ən qədim növlərindən biri də yallı rəqsləridir. Naxçıvanın ənənəvi rəqsləri Şərur, Sədərək, Kəngərli, Culfa və Şahbuz rayonlarının folklor və məktəb kollektivləri tərəfindən nümayiş olunmaqla, toy şənliklərinə xüsusi rövnəq verir.

Yallı sinkretik mədəniyyətdir, buna görə də bir çox ifaçılıq komponentlərini-təfsir, üslub, melodiya, intonasiya, məqam, ritm, söz, müşayiət - özündə ayrılmaz vəhdət şəklində ehtiva edir. Yallı rəqslərinin tarixi-mədəni kökləri məhz Azərbaycan mərasim mədəniyyətinə daxildir. Eyni zamanda qeyd etmək istərdik ki, bir sıra tarixi proseslərin nəticəsində yallı rəqslərinin çoxlu növləri hal-hazırda itirilir. Keçmişdə 100-ə qədər yallı növünün olduğuna baxmayaraq, Sovet dönəmində yallı növləri diqqətsizlikdən bir-birinin ardınca unudulurdu. Buna baxmayaraq müstəqillik illərində muxtar respublikada xalq yaradıcılığının bütün sahələrinin inkişafı, müxtəlif folklor nümunələrinin, o cümlədən yallıların yaşadılması sahəsində zəruri tədbirlər görülür.

Naxçıvanın yallı rəqslərinin beynəlxalq səviyyədə tanıdılması onun müxtəlifliyinin ötürülməsinə və qorunub saxlanmasına böyük təkan verəcək. Məhz buna görə bizim məktəbimiz, müəllim heyətimiz və şagirdlərimiz "Yallı Naxçıvanın ənənəvi rəqsləri"nin YUNESKO-nun Təcili qorunmaya ehtiyacı olan qeyri-maddi mədəni irs siyahısına daxil edilməsini dəstəkləyir və onun qorunması tədbirlərində fəal iştirak etməyə hazır olduğumuzu bildiririk.

**Hörmətlə,**

**Ordubad Şəhər Uşaq Musiqi Məktəbinin direktoru Azər Məmmədov**

UNESCO Director-General
Mrs Irina Bokova

Dear Mrs. Bokova,

We welcome the efforts deployed by UNESCO in protecting the world's cultural heritage and believe the scale of the organization's activities will be expanded under your leadership. As you might be aware, the traditional Azerbaijani dance "Yalli", representing one of the oldest and most beautiful examples of the intangible cultural heritage of the Nakhchivan region, was submitted to the inscription on the Urgent Safeguarding List of UNESCO.

Nakhchivan is well-known as an area where Azerbaijani dances are very popular. Based on traditions and cultural values, Nakhchivan dances are an expression of the originality. Since ancient times up to now, Nakhchivan folk dances reflect the region's specific music style and performing traditions. In this regard, Yalli dance is considered to be one of the oldest practices of folk dances in terms of performing and expression styles. It should highlighted that Nakhchivan traditional dances are still performed by few community groups and collective schools of Sharur, Kangarli, Julfa, Shahbuz and other districts.

As practiced by communities, Yalli is a synthetic culture, thus it involves and is composed of several performance components, such as interpretation, style, rhythm, intonation, moment, rhythm, word and accompaniment. The historical and cultural roots of Yalli dances are a part of the Azerbaijani ceremonial culture. Meanwhile, we would like to emphasize that due to a number of historical processes, many types of Yalli dances are being lost. Nevertheless, in the years of independence, the Autonomous Republic is taking steps to revive and safeguard a number endangered elements, including Yalli dances.

In this regard, we do believe that the international recognition of Yalli dances of Nakhchivan will give a great impetus to its transmission to the further generation and safeguarding of its diversity.

It is for this noteworthy reason, our school, teaching personnel and students highly support the inclusion of "Yalli (Kochari, Tenzere) traditional dances of Nakhchivan" on the Urgent Safeguarding List of UNESCO, and we express our engagement in its safeguarding.

Sincerely yours

Director of the Ordubad City Children Music School

Azer Mammadov

**YUNESKO-nun Baş Direktoru**
**Xanım İrina Bokovaya**

Hörmətli xanım Bokova,

Xalqımızın musiqisinin və rəqslərinin qədim tarixi vardır. Bu rəqslər içərisində yallı xüsusilə seçilir. Yallı tarixi inkişaf yolu keçmiş, xalqın ruhunu, qəhrəmanlığını yaşadaraq bu günümüzə qədər gəlib çıxmışdır.

Yallının şöhrəti onun haqqında kitabların yazılmasına, sənədli filmlərin çəkilməsinə səbəb olub. Ən başlıcası isə budur ki, yallılarımız xalq ruhunu yaşadıb, xalqımızın yüksək səviyyəli yaradıcılıq dünyasını daim zənginləşdirib. Qədim diyarımızda yallını yaşadan, sevdirən, öyrənən, məhəbbətlə bu günə çatdıran bir neçə yaradıcı nəsil formalaşıb. Yallılar doğma Azərbaycanımızda ən çox Şərur rayonunda yayılmışdır. Hələ 1929-cu ildə bu rayonda Yallı Rəqs Qrupu təşkil olunmuş və zaman keçdikcə kollektiv böyümüşdür. Bu gün Şərur Xalq Yallı Ansamblı ilə bərabər rayonda yaşlı nəsli təmsil edən "Nurani" yallı ansamblı və uşaqlardan ibarət "Şərur qönçələri" yallı ansamblı da bu oyunu yaşadır.

Naxçıvanın yallı rəqslərinin beynəlxalq səviyyədə tanıdılması onun qorunub saxlanmasına böyük təkan verəcək. Məhz buna görə də kollektivimiz "Yallı Naxçıvanın ənənəvi rəqsləri"nin YUNESKO-nun Təcili qorunmaya ehtiyacı olan qeyri-maddi mədəni irs siyahısına daxil edilməsini dəstəkləyir və onun qorunması tədbirlərində fəal iştirak etməyə hazır olduğumuzu bildiririk.

**Hörmətlə,**

**Şərur Xalq Yallı Ansamblının direktoru:** **Kimya Babayeva**

UNESCO Director-General
Mrs Irina Bokova

Dear Mrs. Bokova,

There is an ancient history of our people's music and dance. In these dances, yalli dances hold particular place. The Yalli history has through a historical way, through the past, the spirit of the nation, its heroism.

The fame of Yalli dances have led to writing books about them, making documentary films. The main thing is that for communities yalli carry their identity and spirit, and have always enriched their creativity. In our ancient land, several creative generations have been formed that bring yalli to life, love, learn, and try to keep them despite people less practicing it. Yallis is widely spread in Sharur region. As early as in 1929 Yalli Dance Group was created in this region and has turned over time into a big team. Today, along with Sharur Folk Yalli Ensemble, other local ensembles perform yalli dance, such as "Nurani" dance ensemble representing the elderly generation in the region and the "Sharur qoncheleri" dance ensemble consisting mainly of children.

The international recognition of Nakhchivan yalli dances will give a great impetus to its safeguarding. That is why our team supports the inclusion of "Traditional dances of Yalli (Kochari, Tenzere) from Nakhchivan" into the List of Intangible Cultural Heritage in Need of Urgent Safeguarding and we are more than ready to take an active part in its safeguarding.

Sincerely yours,
Director of Sharur Folk Yalli Ensemble

Kimya Babayeva